# Dünyada yüksək nüfuz sahibi olan Lider



"Prezident İlham Əliyevin ad günü münasibətilə aldığı çoxsaylı təbrik məktubları onun təkcə ölkə hüdudlarında deyil, dünyada etimad göstərilən və hörmət edilən şəxsiyyət olduğunu göstərir. Dövlətimizin başçısının qlobal mürəkkəb proseslər fonunda suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasına nail olması xarici siyasi dairələrin diqqətini cəlb edir. Prezident İlham Əliyevin dünyada Azərbaycan haqda haqlı olaraq formalaşdırdığı yüksək imic diqqətlərdən yayınmır".

Bunu Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Prezidentin uğurlu xarici siyasət yürütməsinin nəticəsidir ki, təbrik məktublarında dövlət başçıları xoş arzuları ilə bərabər, Azərbaycanla əməkdaşlığın möhkəmləndirilməsində maraqlı olduqlarını bildirirlər: "Görünən odur ki, dövlətimizin başçısının balanslaşdırılmış xarici siyasəti beynəlxalq əməkdaşlığı inkişaf etdirmək istiqamətində səmərə verib. Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərə yüksək səviyyədə evsahibliyi etməsi, qlobal təşəbbüsləri nüfuzlu beynəlxalq qurumlar və dövlətlər tərəfindən təqdir edilir. Həmçinin qlobal problemlərin həlli ilə bağlı irəli sürdüyü təkliflər və təşəbbüslər də beynəlxalq birlik tərəfindən diqqətlə izlənilir".

Deputat söyləyib ki, bu gün Azərbaycan Ordusunun dünya orduları sırasında ilk 50 yerdə qərarlaşması da Prezident İlham Əliyevin müəllifliyi ilə baş tutub: "Təsadüfi deyil ki, Vətən müharibəsində icra edilən döyüş texnikaları bu gün bir çox hərb məktəbində öyrənilir. Ordumuzun gücünə güc qatan, ölkədə iqtisadi dayanıqlılığı təmin edən, vətəndaşların rifahını yaxşılaşdıran və Azərbaycanı regionun və dünyanın aparıcı dövlətlərindən birinə çevirən Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Onun zəhmətinin bəhrəsidir ki, hazırda Azərbaycan dünyanın siyasi arenasında nüfuzu güclənmiş dövlətlərdən biridir. Ölkədə milli təhlükəsizlik möhkəmlənib, sabitlik hökm sürür. Bu faktor da Azərbaycanı beynəlxalq aləmdə cərəyan edən bir sıra faydalı proseslərin əsas iştirakçısına çevirib.

Arzu Nağıyevin dediyinə görə, Prezidentin ad günündə aldığı təbriklər ona dərin hörmət bəslənildiyini sübut edir. Bu, ona olan ehtiramın bariz təzahürüdür. Azərbaycan bayrağını yüksəklərə ucaldan Prezident İlham Əliyev dünyada nüfuz sahibidir. Təkcə Azərbaycan xalqı yox, beynəlxalq ictimaiyyət də bu fikri bölüşür, İlham Əliyevin nüfuzlu lider olduğunu qəbul edir. Tarixin ən qüdrətli Azərbaycanını yaradan, üçrəngli bayrağımızı Şuşada, Xankəndidə və Xocalıda dalğalandıran lider bu ehtirama layiqdir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 26 dekabr (№ 283).- S.15.